

Xuraman Qasımova-60

# Ustad

**Xuraman Əkrəm qızı Qasımova 1951-ci il iyun ayının 6-da Bakı şəhərində anadan olmuşdur.**

**1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1976-cı ildən Azərbaycan Opera və Balet Teatrının solistidir. Səsinin tembri sopranodur. Çox az müddət Musiqili Komediya Teatrında işləmişdir.**

**Birinci mükafatı 1977-ci ildə ifaçıların 5-ci Zaqafqaziya müsabiqəsində almışdır. Həmin ildə vokalistlərin M.Qlinka adına 7-ci Ümumittifaq müsabiqəsinin laureatı olmuşdur.**

F.Əmirovun "Sevil" operasında Sevil və Dilbər, Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Nigar, C.Puççininin "Bohema" operasında Mimi və Muzetta, C.Verdinin "Otello" və "Aida" operasında Dezdemona və Aida, P.Çaykovskinin "Yevgeni Onegin" operasında Tatyana, Covanni Perqomzinin "Xanımın qulluqçusu" operasında Serpina, Şarl Qunonun "Faust" operasında Marqarita, Zakir Bağırovun "Qoca Xottabiç" operasında Leyla və başqa operalarda yaratdığı obrazlar Xuraman Qasımovanın hərarətli sənət axtarışlarının parlaq nailiyyətləridir.

1981-ci ildə Mariya Kallas adına Beynəlxalq müsabiqənin laureatı olmuş, "Qran pri" mükafatının qızıl medalına layiq görülmüşdür. 1982-ci ildə Moskvada keçirilən ifaçıların P. Çaykovski adına 8-ci Beynəlxalq müsabiqəsinin laureatı olmuşdur.

Xuraman Qasımova Opera və Balet Teatrına solist götürülməmişdən əvvəl, məktəbli vaxtlarından bir neçə bədii filmdə baş rollara çəkilmişdir. Buna görə də hələ vokal sənətində tanınmamışdan əvvəl kino aktrisası kimi populyar olmuşdur. O, "Liftçi qız" filmində baş rolu ifa etmişdir. Sonralar "Mən ki, gözəl deyildim", "Həyat bizi sınayır" filmlərində də maraqlı rollar oynamışdır. Vokal ifaçılığında isə bir qədər sonralar uğur qazanmışdır.

1982-ci ildən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğuldur. Xuraman Qasımova sənət nailiyyətlərinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı laureatı, 1986-cı ildə isə Azərbaycan Respublikasının xalq artisti fəxri adlarına layiq görülmüşdür. 1988-ci ildə 8-ci Beynəlxalq Çaykovski müsabiqəsinin gümüş medalına layiq görülmüşdür.

1994-cü ildən İstanbul Dövlət Universitetinin Konservatoriyasının professorudur. 2001-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Xuraman Qasımova bir sıra xarici ölkələrdə - Bolqarıstanda, Çexoslovakiyada, Maltada, Fransada, Avstriyada, Norveçdə, Türkiyədə, Finlandiyada çıxışlar etmişdir.

**Xuraman Qasımova hal-hazırda öz şərəfli sənət yolunu yorulmadan sevə-sevə davam etdirir. O, ifaçılıq sahəsində həm respublikamızda, həm də respublikadan kənar ölkələrdə də tanınır.**

**S. EMİNOVA**